# (HƏDIS (30 10

<"xml encoding="UTF-8?>

Hədis 290: Həzrət Əli (ə) buyurur: “Xalqın eybi dalınca gəzən adamın eybini Allah açar.”

* * *

Hədis 291: Həzrət Əli (ə) buyurur: “Başqalarının sirrini açan kəsin sirrini Allah açar.”

* * *

Hədis 292: Həzrət Əli (ə) buyurur: “Axirət işlərini qaydaya salanın dünya işlərini Allah qaydaya salar.”

* * *

Hədis 293: Həzrət Əli (ə) buyurur: “Allahın qəzavü-qədərinə imanı olan kəs başına gələnlərə əhəmiyyət verməz.”

* * *

Hədis 294: Həzrət Əli (ə) buyurur: “Özünü islah etməyən kəs başqasını islah edə bilməz.”

* * *

Hədis 295: Həzrət Əli (ə) buyurur: “Başqasını nəsihət etməyə o kəs layiqdir ki, özünü nəsihət edir.”

* * *

Hədis 296: Həzrət Əli (ə) buyurur: “Bütün qüvvəsini dünyaya sərf edən kəsin qiyamət günü ağrı və qüssəsi çox olar.”

* * *

Hədis 297: Həzrət Əli (ə) buyurur: “Üzr istəyən halda cəza vermək necə də pisdir!”

* * *

Hədis 298: Həzrət Əli (ə) buyurur: “Aşkarda görülməsi ayıb olan işi gizlində də görmə.”

* * *

”.Hədis 299: Həzrət Əli (ə) buyurur: “Çox pisdir ki, insanın zahiri gözəl, batini isə nöqsanlı olsun

* * *